# Kiçik yaşlı məktəblilərin əqli inkişafında inkişafetdirici təlim mühitinin rolu

**Aynur Qasımova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aynurmehdiyeva84@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. İ.H. Cəbrayılov,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** əqli inkişaf, təfəkkür əməliyyatları, inkişafetdirici təlim
**Ключевые слова:** умственное развитие, операции для мышления, развивающая обучения
**Key words:** intellectual development, creative skills operations, developmental education

İnsanın bir şəxsiyyət kimi formalaşması. Əqli inkişaf yalnız müəllim və tərbiyəçinin rəhbərliyi altında deyil, onu əhatə edən ətraf aləmin təsiri altında da baş verir. Təfəkkür və əqli inkişaf əsas anlayışlardan biridir.

Təfəkkür yeni, mühüm əlamət, xassə və qanunauyğunluqların axtarılmasına və kəşf edilməsinə yönəldilmiş, nitq ilə ayrılmaz bağlı olan bir psixi prosesdir. Təfəkkür beynin məhsuludur. Hər bir insan qarşısına qoyduğu məqsədə çatmaq üçün müxtəlif fəaliyyət növlərini həyata kecirir və qarşısına müəyyən məqsədlər qoyur. Burdan aydın olur ki, əqli tərbiyənin həyata keçməsi üçün kiçik yaşlı məktəblilərdə bütün psixi prosesləri, xüsusilə təfəkkürü inkişaf etdirmək lazımdır. Əqli qüvvələrin inkişaf etdirilməsi xüsusi qayğı tələb edir. Bu zaman fikri fəallıq priyomlarından istifadə edilir.

Əqli qüvvələr anlayışı əqlin müəyyən inkişaf səviyyəsini göstərir. Bu proses məktəblilərin qabiliyyətlərinin formalaşmasına, biliklərin zənginləşməsinə və təkmilləşməsinə kömək edir. Əqli qüvvələr intellektual bacarıqların təlim-tərbiyə prosesində şagirdlərin fikri fəallıq priyomlarının və təfəkkürlərinin, həmçinin nitqin inkişafına şərait yaradır. Təfəkkür və nitq bir-biri ilə vəhdətdə inkişaf edir. Əqli inkişaf kiçik yaşlı məktəblilərin nitqinin məzmunlu, anlaşıqlı, ifadəli olmasını təmin edir.

Tam orta təhsilli məktəblərdə tədris edilən fənlər şagirdlərin əqli cəhətdən tərbiyə olunmasına, şəxsiyyət bütövlüyünün formalaşmasına xüsusi xidmət göstərir. Müəyyən bilik ehtiyatı konkret tədris materialları əsasında yaradılır. Müasir məktəbli bilikləri yalnız dərslik, dərs vəsaitləri, vasitəsilə mənimsəmir. O, müxtəlif mənbələrdən (internet resursları və s.) yararlanaraq öz bilik ehtiyyatlarını zənginləşdirir. Əqli inkişafın nəticəsində məktəbli düşünməyi bacarmaq kimi fikri fəallıq əməliyyatlarına yiyələnir. Əqli inkişaf şagirdlərə təbiət, cəmiyyət və təfəkkür qanunları haqqında biliklər verir. Onlar elmlərin əsaslarına yiyələnməklə aləmin və insan cəmiyyətinin necə əmələ gəlməsi və inkişaf etməsi, təbiətdə və ictimai həyatda nə kimi səbəb və nəticə əlaqələrinin mövcud olması, kütlələrin həyatını hansı yollarla yaxşılaşdırmağın mümükünlüyü kimi bu və ya digər suallara cavablar tapır, müəllimin köməyi ilə obyektiv aləmin cism və hadisələri, bunların arasındakı qarşılıqlı əlaqələri dərk edirlər.

Şagirdlərdə əqlin inkişaf edilməsində texniki fənlərin, əmək təliminin, nəğmə və rəsm, bədən tərbiyəsi və s. böyük əhəmiyyəti vardır. Şagirdlərdə əqlin inkişafına sinifdənxarıc işərin

də təsiri böyükdür. Məktəblərdə həyata keçirilən müxtəlif tədbirlər, fənn dərnəkləri, ekskursiyalar, məktəbdə təşkil olunan elmi-kütləvi tədbirlərdə iştirak etmək, tanınmış elm adamları ilə görüşlər təşkil etmək, müxtəlif uşaq kitablarının təqdimatı və s. şagirdlərin əqli inkşafına mesbət təsir edir. Əqlin inkişaf etdirilməsində müəllimin əməyi mühüm rol oynayır.

Hazırda müəllimdən öz fənnini yaxşı bilib-öyrətmək deyil, həm də pedaqoji prosesə yaradıcılıqla yanaşmaq, novator olmaq, yeniliklərlə işləyə bilmək, təhsilalanların təfəkkürünü inkişaf etdirmək, onları bir şəxsiyyət kimi formalaşdıra bilmək və s.tələb olunur. Müəllim uşaqları təkcə biliklərlə silahlandırmaq deyil, həm də onları bacarıqlara yiyələndirməli və inkişaf etdirməlidir. Müəllim təlim prosesini pedaqoji əməkdaşlıq əsasında təşkil etdikdə dərslər maraqlı və məzmunlu olmaqla yanaşı, bir növ şagirdləri maqnit kimi özünə cəkir. Belə dərslərə şagirdlər həvəslə gəlir, dərsdə dialoq, sərbəst düşüncə, həm də sağlam psixoloji mühit istiqamətində sağlam şərait yaranır. Müəllim onların məntiqi, tənqidi və yaradıcı təfəkkürülərinin işləməsinə nail olur. Onların təfəkkürü, nitqi, təxəyyülü, diqqət və hafizələri kompleks halda inkişaf edir. Müəllim şagirdlərdə axtarıcılıq fikri oyadır, onlarda elmə, elmi-tədqiqat işlərinə məhəbbət formalaşdırır.

Müəllim dərsə hazırlaşkən təlimin başlıca funksiyalarının-təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyalarının necə yerinə yetirəcəyi əsas olmalıdır. O, əvvəla həmin dərsdə öyrədəcəyi əsas bilikləri, ideyanı, qanunu, qaydanı, anlayışı dəqiqləşdirir, aşılayacağı tədris və idrak bacarıqlarını müəyyənləşdirir; ikincisi, dərs zamanı əxlaqi, mənəvi, estetik və s. keyfiyyətlərin formalaşmasına təkan verəcəyini aydınlaşdırır; üçüncüsü, dərsin məzmununu təşkil edən bilik və bacarıqlar vasitəsi ilə hansı psixoloji prosesləri -diqqəti, təxəyyülü, iradəni və s. inkişaf etdirəcəyini konkretləşdirir.

Dərsin hər mərhələsində müəllim necə hərəkət edəcəyinivə şagirdlərin nə ilə məşğul olacağını planlaşdırır. Qarşıdakı başlıca didaktik məqsəd və vəzifələrdən asılı olaraq müəllim prosesə uyğun hazırlaşmalıdır. Hansı əyani və texniki vasitələrdən, hansı mənbələrdən, sorğu kitablarından, lüğətlərdən və s. dərsdə istifadə edəcəyini müəllim qabaqcadan düşünür. Müəllim dərsə hazırlaşarkən aşağıdakıları əsas götürməlidir:

— proqramın tələblərini;

— şagirdlərin real səviyyəsini;

— məqsədi;

— materialın məzmununu;

— istifadə edəcəyi vasitə və metodları;

Müasir pedaqogika belə bir mövqedən çıxış edir ki, dərsin planlaşdırılmasında aşağıdakılar diqqət mərkəzində saxlanılmalıdır:

1. Mövzunun proqramda necə verilməsi, proqramın ən cox nəyi tələb etdiyinin diqqətlə öyrənilməsi:
2. Öyrəniləcək mövzu ilə bağlı yeni elmi-metodik ədəbiyyatın nəzərdən kecirilməsi, öyrənilməsi.
3. Sinfin bütün şagirdlərini, eləcə də hər bir şagirdi göz önünə gətirmək, materialı əvvəlcədən onların real səviyyəsinə uyğunlaşdırmaq, müvafiq iş priyomları müəyyənləşdirmək zəruridir.
4. Dərsin məqsədini aydınlaşdırmaq.
5. Məqsədə catmaq ücün iş növünü müyyənləşdirmək.
6. Şagirdin səviyyəsi, məqsəd, əldə olunan vasitələr sistemi ilə müəllimin öz imkaları arasında əlaqə müəyyən edilməlidir.
7. Qeyd olunanlar əsasında dərsin kompozisiyası yaradılmalı, dərsin planı hazırlanmalıdır.

Müasir dərsin, ümumiyyətlə, problemli, inkişafetdirici təlimin təşklinin birinci və başlıca şərti yüksək ixtisaslı mütəxəssis–müəllim pedaqoqun mövcudluğudur. Təlimin təşkili pedaqoqdan yeni səviyyədə sistematik iş tələb edir. Şagirdin psixi vəziyyətinin müəyyən edilməsi, onun təlimə hazırlıq dərəcəsi, problemli vəziyyətin yaradılması, şagirdlərin müstəqil idrak fəaliyyətinin stimullaşdırılması, bu fəaliyyətin idarə olunması və s. bütün bunlar pedaqoji intuisiya, çevik əql, metodik ustalıq, həm də başlıcası tədrisin elmi təşkili vərdişlərini tələb edir. Müxtəlif təlim metodlarının tətbiqi nəticəsində sagirdlərin əqli inkşafına müsbət təsir göstərən mühiti təşkil etmək müəllimin birbaşa hazırlığından və pedaqoji bacarığından asılıdır.

Bu mənada fəal təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakcıları ilə əməkdaşlıq şəraitində həyata kecirilən təlim nəzərdə tutur. Bu prosesdə şagird passiv dinləyici deyil. Onlar dərsin fəal iştirakçılarıdır, müəllimin yaxın köməkçisidirlər. Passiv təlim metodunda əsas fiqur müəllim idisə indi müəllim və şagird birlikdə dərsin əsas qurucusu təşkilatçılarıdır.

Fəal təlimdə müəllim və şagird eyni səviyyədə eyni dərəcədədirlər. Əgər passiv dərs avtoritar üsulda qurulursa fəal dərs tipində, əməkdaşlıq işgüzarlıq, demokratik prinsiplər öz əksini tapır.

Fəal təlimdə müəllim şagirdə təsir göstərdiyi kimi, şagird də müəllimə təsir göstərir. Fəal təlimdə müəllim şagirdə öyrətdiyi kimi, müəllim özü də şagirddən öyrənir. Fəal təlimdə qarşılıqlı dialoq əməkdaşlıq hökm sürür. Fəal təlimin prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar;

1. Şəxsiyyətə yönəlmış təlim prinsipi
2. Fəal idrak prinsipi
3. İnkişafetdirici təlim prinsipləri
4. “Qabaqlayıcı təlim “prinsipi
5. Təlim tərbiyənin çevikliyi prinsipi
6. Əməkdaşlıq prinsipi.
7. Dioloji təlim prinsipi.

Fəal və intetaktiv təlim anlayışlarının bir cox cəhətləri bir -biri ilə yaxın və ümumidir. Hər iki metodla kecilən dərs şagirdləri fəallaşdırmağa yönəldilir, hər ikisində şagirdlərə hazır biliklər verilmir onları axtarıcılığa tədqiqatçılığa sövq edir. İnteraktiv təlimin əsas üstünlüyü – real idrak motivasiyasının yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gercək ziddiyətlərin həll imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini rövnəqəndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır.

Deyilənlərdən məlum olur, ki interaktiv metodlar təlimin keyfiyyətini xeyli dərəcədə yüksəldir, şagirdlərdə yeni idraki və əxlaqi keyfiyyətlər formalaşdırır; müsahibini, hər hansı danışanı maqnitafon, radio, televiziya verilişlərini dinləməyi, söylənilən fikrə münasibət bildirməyi, müstəqil, tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, irəli sürdüyü fikri müdafiə etməyi, sübuta yetirməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, təcrübəsini və ümumi hazırlığını təhlil etməyi, özünü obyektiv qiymətləndirməyi, özünü idarə etməyi və s. bacarmalıdır..

Ən son tədqiqatların nəticəsi göstərir ki, interaktiv təlim metodları effektiv nəticəni konstruktivizm nəzəriyyəsinə istinad edərək təlimə İKT-nin yaxından tətbiqi ilə verir və öz fəaliyyətini səmərəli edir. Psixoloqlar qeyd edirlər ki informasiya insanın eşitdiklərinin 10%-i, gördüklərinin 50%-i, özü etdiklərinin isə 90%-i həcmində yaddaşında qalır.

İnteraktiv təlim metodları həmcinin sinif otağının həmişəki tərtibatından məşğələlərin təşkilinin adət etdiyimiz qaydasından imtina olunmasını tələb edir. Şagird masalarının sinif otağında yerləşdirilməsinin dörd əsas forması vardır:

1. “Sinif” forması - ənənəvi qayda.
2. “Kafe” forması (diskussiya klubu).
3. “U” hərfi formasında sinif.
4. “Dairə” formasında sinif.

“Kafe” forması qruplarda iş üçün əlverişlidir. ”U” hərfi forması rollu oyunlar zamanı, tanışlıq vaxtı, diskussiyaların gedişində daha səmərəlidir. Metodların düzgün secilməsi müəllim yaradıcılığından asılıdır. Tədris prosesində yaradıcı mühitin yaradılması üçün müəllimdə faktlar (bilik vermək yox, bilik əldə etməyə həvəs yaratmaq, hazırcavablı suallar yox, problemli suallar vermək, informasiya vermək yox, öyrənəni bilikləri əldə edilməsi prosesinə cəlb etmək) tələb olunmalıdır.

Hər bir şagirddə təlimə, biliyə müxtəlif münasibətlər mövcuddur. İstedadlar maraqlar, qabiliyyətlər də müxtəlifdir. Onları aşkara cıxarmaq müəllimdən asılıdır. Hər an şagirdlərin düşünmə qabiliyyətini, fikri fəallığını, müstəqilliyini inkişaf etdirmək lazımdır.

Şagirdlərin idrak fəallığının inkişafında “evristik müsahibə” “illüstrasiya və demonstrasiya” “kitab üzərində iş”, “praktik calışma” metodlarından istifadə etməklə yanaşı “iş vərəqləri” “deatların təşkili”, “şəkil tapmaca”, “rollu oyunlar”, “əqli hücum” və s. kimi yeni təfəkkürün məhsulu olan metodlardan istifadə edilməsi tədris prosesində şagirdlərin inkişafını fəallaşdırır, uşaqların öyrənməyə həvəsini daha da artırır.

Müşahidələr göstərir ki, şagirdlərə müşahidə etməyi, nəticə cıxarmağı, fakt və hadisələrin başlıca cəhətini axtarıb tapmağı öyrənməklə təfəkkür inkişafında əsaslı irəliləyiş yaratmaq və onları biliklərin mənimsənilməsinin fəal iştirakçısına çevirmək mümkündür. Elə inkişafetdirici təlim ideyası da şagirdlərin əqli fəallığını təfəkkür müstəqilliyini gücləndirməyi tələb edir.

İnkişafetdirici təlim ideyaları kiçik yaşlı məktəblilərin yaradıcı fəallığını artırmaq üçün dərsin hər bir mərhələsində geniş tətbiqini tələb edir.

**Məqalənin aktuallığı.** İnkişafetdirici təlim mühiti şagirdlərin əqli inkişafına müsbət təsir göstərə bilən bir problem kimi bu gün də aktuallıq kəsb edir. Bu məsələ inkişafetdirici mühitə əsaslandığından şagirdin əqli inkişafının formalaşmasına mühüm təsir göstərir. Bu məqsədlə təlim mühitinin müasir tələblərə cavab verməsinə xüsusi ehtiyyac vardır.

**Məqalənin elmi yeniliyi.** İnkişafetdirici təlim mühitinin vacibliyi, onun şagird təfəkkürünə, əqlinə təsiri, müəllim–şagird münasibəti, interaktiv təlim metodlarından istifadə və təlim prosesinin keyfiyyətinin yüksəldilməsi göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bu sahədə fəaliyyət göstərən mütəxəssislər faydalana bilərlər.

## Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
2. Orta ümumi təhsil səviyyəsində yeni dövlət proqramıları (kurrikulumları). Bakı, 2013.
3. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.

**А. Касимова**

## Роль среды развивающегося обучении в умственном развитии дошкольников

### Резюме

Развития человека как личность зависят от его умственных возможностей. И развития умственных ресурсов требует особого внимание. В это время используется из приемов умственных активностей. Понятие умственного ресурсов показывает меры развитии. В умственной развитии учеников большую роль играет технически предметы, трудовое обучение, пение, черчение, физическое воспитание и т.д.

**A. Gasimova**

## Little adult development training mental development of the pupils Role of environment

### Summary

It is his mental opportunities connected with forming as personality of the man. Developing of the mental strengths demands special care. Activity primo is used thought this time. Conception of mental strengths shows level of definite development your mental. Of the labor training of the technical subjects mental in developing in pupils, song and drawing, physical training etc. There is his big importance.

**Redaksiyaya daxil olub:** 19.11.2018